# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

"Əkinçi" ilə başlayan ŞƏRƏFLİ TARİX!




3

SƏS

№ 055 (7465)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

21 iyul 2026-cı il.
Qiyməti 1 manat

## Məşğulluq Strategiyasına dair Tədbirlər Planı təsdiqləndi!



2

# "Putin qapıdadır" - Avropa üçün MÜHARİBƏ SİQNALI...



6

### Məşğulluq Strategiyası nəyi nəzərdə tutur?



5

### Çin Kommunist Partiyasının nümayəndə heyəti ölkəmizdə səfərdədir



4

### Ailə büdcəsini ən çox zəifdədən "görünməz xərclər"...



8

## Paşinyan Sülh Müqaviləsini niyə "unutdu"?



7

## Şəkər və diabet dünya əhalisini öldürür - BÖYÜK TƏHLÜKƏ!



7

# Məşğulluq Strategiyasına dair Tədbirlər Planı təsdiqləndi!



***Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqındanin Sərəncam imzalayıb. Sərəncama əsasən, "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı" təsdiq edilib. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirəcəkdir. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat veriləcək. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsini Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcəkdir. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.***

"Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nda əksini tapıb ki, Azərbaycanda regionların iqtisadi inkişaf prioritetlərinə uyğun peşə hazırlığı mərkəzləri şəbəkəsi genişləndiriləcək. Sənədə əsasən, 2026-2030-cu illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yerli icra hakimiyyəti orqanları ilə birgə regionlarda peşə hazırlığı mərkəzlərinin yaradılması istiqamətində tədbirlər həyata keçiriləcək. Ölkəmizdə aktiv məşğulluq tədbirlərinə cəlb edilən şəxslərin sayı artırılacaq. Tədbirlər Planına əsasən, layihənin əsas icraçısı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılıb. Sənəddə qeyd edilib ki, 2026-2030-cu illərdə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin əmək bazarına çıxışının artırılması üçün aktiv məşğulluq tədbirlərinin səmərəliliyi artırılacaq. Həmçinin sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün həyata keçirilən aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi istiqamətində beynəlxalq təcrübə öyrəniləcək. İlkin mərhələdə peşə hazırlığı mərkəzlərinin yaradılması üçün regionlar müəyyənləşdiriləcək. Sonrakı mərhələdə isə 6 regional peşə hazırlığı mərkəzi yaradılacaq.

Azərbaycanda əmək bazarının tələblərinə uyğun olaraq ali və orta ixtisas təhsili proqramlarının yenilənməsi həyata keçiriləcək. Bu Tədbirlər Planında öz əksini tapıb. Tədbirlər Planına əsasən, layihənin əsas icraçısı Elm və Təhsil Nazirliyi, digər icraçılar isə aidiyyəti dövlət qurumlarıdır. Tədbirin icrası 2026-2030-cu illəri əhatə edəcək. Sənədə əsasən, ilk mərhələdə ali və orta ixtisas təhsili pillələri üzrə yenilənməsinə ehtiyac olan təhsil proqramları müəyyənləşdiriləcək. Daha sonra əmək bazarının mövcud və perspektiv tələbləri nəzərə alınmaqla həmin proqramlar yenilənəcək. Azərbaycanda iş yerində öyrənmə (usta yanında şagirdlik və təcrübəkeçmə) sisteminin yaradılması istiqamətində yeni hüquqi mexanizmin formalaşdırılması nəzərdə tutulur. Sənədə əsasən, 2026-2029-cu illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının cəlb olunması ilə iş yerində öyrənmə üzrə yeni mexanizmin yaradılması məqsədilə normativ hüquqi baza formalaşdırılacaq. İlkin mərhələdə iş yerində öyrənmə ilə bağlı beynəlxalq təcrübə araşdırılacaq və müvafiq təkliflər hazırlanacaq. Növbəti mərhələdə bu sahəni tənzimləyəcək normativ hüquqi akt layihələri hazırlanaraq aidiyyəti üzrə təqdim ediləcək. Tədbirlər planına əsasən, görüləcək işlərin yekununda iş yerində təcrübə və usta yanında şagirdlik dövründə əmək münasibətlərini tənzimləyən yeni mexanizm formalaşdırılacaq. Azərbaycanda əmək bazarının tələblərinə uyğun olaraq ali və orta ixtisas təhsili proqramlarının yenilənməsinin həyata kecirilməsi də nəzərdə tutulur. Tədbirlər Planına əsasən, layihənin əsas icraçısı Elm və Təhsil Nazirliyi, digər icraçılar isə aidiyyəti dövlət qurumlarıdır. Tədbirin icrası 2026-2030-cu illəri əhatə edəcək.

Sənədə əsasən, ilk mərhələdə ali və orta ixtisas təhsili pillələri üzrə yenilənməsinə ehtiyac olan təhsil proqramları müəyyənləşdiriləcək. Daha sonra əmək bazarının mövcud və perspektiv tələbləri nəzərə alınmaqla həmin proqramlar yenilənəcək.

Onu da qeyd edək ki, peşə təhsili müəssisələrində təhsilverənlər üçün təkmil ixtisasartırma proqramları tətbiq olunacaq. Tədbirlər Planına əsasən, layihənin əsas icraçısı Elm və Təhsil Nazirliyi, tövsiyə olunan tərəfdaş isə Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Konfederasiyasıdır (ASK). Proqramın icrası 2026-2030-cu illəri əhatə edəcək. Sənədə əsasən, peşə təhsili müəssisələrində çalışan təhsilverənlərin müasir texniki bilik və bacarıqlarının artırılması məqsədilə təkmil ixtisasartırma proqramları həyata keçiriləcək. Nəticədə müasir texniki bilik və bacarıqlar üzrə təlim keçmiş təhsilverənlərin sayının minimum 250 nəfərə, sonrakı mərhələdə isə ən azı 300 nəfərə çatdırılması nəzərdə tutulur.

Tədbirlər Planında prioritet istiqamət olaraq məşğulluqyönümlü iqtisadi inkişaf siyasətinin həyata keçirilməsi, mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi, əmək bazarının tənzimlənməsi sahəsində normativ hüquqi bazanın və institusional strukturun təkmilləşdirilməsi, işçi qüvvəsinin bacarıqlarının inkişaf etdirilməsi və əmək standartlarının təkmilləşdirilməsi, aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi və səmərəliliyinin artırılması, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların əmək bazarına inteqrasiyasının gücləndirilməsi, əmək bazarının monitorinqi və proqnozlaşdırılması sisteminin inkişaf etdirilməsi və s. nəzərdə tutulur.

Digər prioritet istiqamət kimi, sosial dialoqun inkişaf etdirilməsi və qeyri-formal əmək münasibətlərinin qarşısının alınması nəzərdə tutulur. Sosial dialoqun inkişaf etdirilməsi və qeyri-formal əmək münasibətlərinin qarşısının alınması, qeyri-formal məşğulluğun qarşısının alınması ilə bağlı preventiv maarifləndirmə tədbirlərinin həyata keçirilməsi qeyd olunur.

Göründüyü kimi, "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nda əmək standartlarının təkmilləşdirilməsi, aktiv məşğulluq, peşə təhsili müəssisələrində çalışan təhsilverənlərin müasir texniki bilik və bacarıqlarının artırılması məqsədilə təkmil ixtisasartırma proqramları həyata keçirilməsi və s. nəzərdə tutulub.

***Zümrüd BAYRAMOVA***

## *Rəsmi xronika*

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 17-də İrlandiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kler Brosnanı qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim edib. Prezident İlham Əliyev səfirlə söhbət edib. Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətləri genişləndirməyin əhəmiyyətini qeyd edərək, siyasi sahə ilə yanaşı, investisiyalar və digər potensial istiqamətlər üzrə əməkdaşlığı möhkəmləndirmək üçün imkanlara toxunub.

Bakıda olmaqdan şərəf hissi keçirdiyini deyən səfir paytaxtımızın gözəlliyinin və burada tarixi ənənələrlə müasirliyin vəhdətinin onlarda zəngin təəssüratlar yaratdığını bildirib, Azərbaycanın gözəl ölkə olduğunu vurğulayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 17-də Oman Sultanlığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Saif Rəşid Saif Al Cahvarini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim edib. Prezident İlham Əliyev səfirlə söhbət edib.

Dövlətimizin başçısı dost ölkələrimiz arasında münasibətlərin uğurlu inkişafından məmnunluğunu bildirərək, bir çox sahədə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın həyata keçirildiyini deyib və tərəfdaşlığın möhkəmləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğulayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 17-də Kamboca Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sok Çeanı qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim edib. Prezident İlham Əliyev səfirlə söhbət edib.

Dövlətimizin başçısı ölkəmizin Kamboca ilə ikitərəfli münasibətlərə və qarşılıqlı dəstəyə, həmçinin hökumətlərimiz və hakim partiyalar səviyyələrində təmaslara böyük önəm verdiyini deyərək, yalnız siyasi deyil, eyni zamanda, iqtisadiyyat, investisiyalar sahələrində əlaqələrimizi daha yüksək səviyyəyə çatdırmağın önəminə toxunub, Azərbaycanla Kambocanın dost ölkələr olduğunu bildirib. Qəbula görə dövlətimizin başçısına təşəkkürünü ifadə edən səfir Kambocanın Kralı Norodom Sihamoninin və Baş naziri Hun Manetin salamlarını Prezident İlham Əliyevə çatdırıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 17-də Braziliya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bernard Jorj Leopold de Qarsia Klinqli qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim edib, daha sonra Prezident İlham Əliyev səfirlə söhbət edib.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin inkişafından məmnunluğunu bildirərək, siyasi, iqtisadi-ticari, sərmayələr, turizm sahələrində əməkdaşlığın genişləndirilməsinin və müxtəlif səviyyələrdə təmasların artırılmasının əhəmiyyətini vurğulayıb. Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzulayıb, onun fəaliyyətinin Azərbaycan-Braziliya əlaqələrinin inkişafına töhfə verəcəyinə ümidvarlığını bildirib.

Ölkəmizə səfir təyin olunmasından və dövlətimizin başçısı ilə görüşdən şərəf hissi duyduğunu deyən Bernard Jorj Leopold de Qarsia Klinql diplomatik əlaqələrimizin yüksək səviyyədə olduğunu qeyd edib.

# “Əkinçi” ilə başlayan ŞƏRƏFLİ TARİX!

"Xalqın hər bir dərdi və xahişi o qəzetdə çap olunsun ki, o qəzetə baxan xalqı aynada görən kimi görsün"




Azərbaycan milli mətbuatının banisi, görkəmli ictimai xadim, böyük maarifpərvər, tanınmış publisist, pedaqoq və təbiətşünas alim Həsən bəy Zərdabi demokratik ideyalarla zəngin olan bir ziyalı olaraq tariximizdə iz salıb. Zəhmətkeş kütlələrin xoşbəxtlik və tərəqqisini elmdə görmüş, elmin, təhsilin həyatla əlaqəsinə böyük əhəmiyyət vermiş Həsən bəy Zərdabi geniş ictimai fəaliyyəti ilə mətbuat tariximizdə əbədi izini qoyub. Asudə vaxtlarını xalq arasında keçirmiş, uşaqları və yeniyetmələri elmə, mədəniyyətə, maarifə həvəsləndirmiş böyük ziyalı bütün həyatını xalqının maariflənməsinə həsr edərək böyük bir yola çıxmışdı. O, Xeyriyyə Cəmiyyəti, teatr və müəllimlik yolu ilə xidmət etdiyi xalqa daha çox xidmət etmənin yollarını axtarır və bunu qəzetin nəşrində görürdü. ”Bizim Cəmiyyəti Xeyriyyə bina tutmadığından teatr təşkil etdiyimiz salonun boş qaldığı zaman anladım ki, müsəlman qardaşlarımızı bir yerə toplayıb məktəblər açdıraraq küçədəki uşaqları oxutmaq mümkün deyildir. Elmsiz bu dövrdə yaşamaq mümkün deyildir. Nə etməli? Hər kəsi çağırıram gəlmirlər, göstərirəm görmürlər, deyirəm anlamırlar. Sonunda başa düşdüm ki, səs-küy salaraq, məcburi başa salmaqdan başqa çarəm yoxdur. Mütləq bu izah etdiklərimi bir gün başa düşən olacaqdır. Axan bir suyun altına nə qədər sərt daş qoyursan qoy, zamanla o daş əriyib yox olacaqdır. Əgər elədirsə, doğru söz də bir gün başa düşüləcəkdir. Onun üçün mütləq qəzet nəşr etdirmək gərəkdir. Hər il qəzet oxuyanlardan 10 nəfər anlasa, onların sayı hər il artacaqdır. Suyun önünü kəsən o bənd sonunda dayana bilməyib yıxılacaqdır !”. Beləliklə, o bu məqsədinə çatmaq üçün israrlı olaraq mücadilə edir. Təbii ki, Həsən bəy Zərdabinin gördüyü işlərin hamısı millətin tərəqqisi naminə idi. Hər addımında vətənpərvərlik özünün biruzə verirdi. Əlbəttə ki, mətbuatın olması o dövr üçün zəruri idi. O ana dilində qəzet nəşr etmək fikrinə hələ Qubada, mahal məhkəməsinin katibi işlədiyi dövrdə gəlmişdi. Böyük Azərbaycan maarifiçisi Abbasqulu bəy Bakıxanovun qardaşı tələb olunan maliyyə xərclərini öz üzərinə götürürdü.

## VƏTƏNİNƏ, XALQINA, MİLLƏTİNƏ XİDMƏT ETMƏK ARZUSU

Bəs, Həsən bəy Zərdabi kim idi? Həsən bəy Səlimoglu (Zərdabi) 1837-ci ildə (bəzi mənbələrdə 1842-ci il) keçmiş Bakı quberniyasına daxil olan Göyçay qəzasının Zərdab kəndində bəy ailəsində anadan olmuşdur. Həsən bəy Zərdabi ilk təhsilini Zərdab kəndindəki mədrəsədə almışdır. Burada ərəbcə və farsca öyrənən Zərdabi 1852-ci ildə Şamaxı şəhərində açılan rusca dünyəvi təhsil verən məktəbə yazılmışdır. Məktəbi bitirmək üçün imtahan verəndə Qafqaz Təhsil Komissiyası Müdiri baron Nikolayın diqqətini çəkmiş və baron onu dövlət təqaüdü ilə Tiflisə oxumağa göndərməyi təklif etmişdir. Mənbələrdə qeyd olunur ki, bu ərəfələrdə atası vəfat edən Zərdabiyə böyük qardaşları Tiflisə getməyə icazə verməmişdilər. Tiflisdə yaşayan atasının dayısı general Fərəc bəy Ağayev bu hadisədən sonra hadisəyə müdaxilə edərək, Zərdabini Tiflisə gətizdirmişdir. Tiflisdəki məktəb üçün girdiyi imtahanları uğurla bitirən Zərdabi 1858-ci ildə I Tiflis məktəbinin V sinfinə qəbul olmuşdur. 1861-ci ildə həmin məktəbi uğurla bitirən Zərdabi elə eyni ildə dövlət təqaüdü ilə Moskva Universiteti Fizika-Riyaziyyat fakültəsində Təbiət elmləri üzrə təhsil almağa göndərilmişdir. 1865-ci ildə bu universiteti fərqlənmə diplomu ilə bitirmişdir. Ali təhsil ocağında oxuduğu müddətdə tələbələr arasında xüsusi olaraq seçildiyinə görə fakültəni əla qiymətlərlə başa vurduqdan sonra elmi iş üçün universitetdə saxlanılması qərarı qəbul edilmişdir, lakin vətəninə olan sonsuz məhəbbəti, xalqına, millətinə xidmət etmək arzusu onu Azərbaycana çəkib gətirmişdir.

## ”HƏR BİR VİLAYƏTİN QƏZETİ GƏRƏK O VİLAYƏTİN AYNASI OLSUN”

Zərdabi universiteti bitirdikdən sonra Tiflisdə Torpaq İdarəsində işləməyə başlayır. Bu vəzifədən ayrıldıqdan sonra 1868-ci ildə Qubada məhkəmə katibi olaraq işləməyə başlayır. 4 oktyabr 1868-ci il tarixində işinə son verildikdən sonra bir müddət müstəqil məhkəmə vəkilliyi etmişdir. 18 noyabr 1869-cu ildə Bakıda məktəbə təbiət elmləri üzrə müəllim kimi işə düzəlmişdir. Bununla da onun həyatında yeni dövr - maarifçilik, xalqın savadlanması, ana dilində təhsil uğrunda mübarizə mərhələsi başlayır, lakin problemin çətinliyi onda idi ki, Həsən bəy Qafqazda o zaman fəaliyyət göstərən 10 gimnaziyada çalışan müəllimlər içərisində ali təhsilli yeganə azərbaycanlı idi. Azərbaycanlı şagirdlər də yox dərəcəsində idi. Bununla da, Həsən bəy azərbaycanlı uşaqları məktəbə cəlb etmək üçün xalq içərisində təbliğat aparmağı qarşısına məqsəd qoyur. Bundan sonra, müsəlmanlar arasında ilk dəfə 1872-ci ildə Bakıda ”Cəmiyyət-xeyriyyə” də yaratmışdı. Həmin ilin bütün yayını Həsən bəy Zərdabi gimnaziyada təhsil alan şagirdləri Nəcəf bəy Vəzirov və Əsgərağa Adıgözəlov ilə birlikdə Azərbaycanın şəhər və kəndlərini dolanaraq rəsmi dəftərə ”Cəmiyyət-xeyriyyə”yə üzv yazdırmaqla məşğul olmuşdu. Yoxsul və kimsəsiz uşaqların tərbiyəsi və məktəbə hazırlığı ilə məşğul olmaq üçün savadlı türk (azərbaycanlı) qadın müəllimlərə ehtiyac yarandığından, Həsən bəy Zərdabi 1872-ci ildən ”Qafqaz” qəzetində Tiflis ”Müqəddəs Nina” Qadın gimnaziyasını bitirən qızların müəllim kimi peşəsini davam etdirməklərini təbliğ edir. Bundan sonra, Zərdabi bir gün ”Qafqaz” qəzetindəki xəbərdən Tiflisdə olan Müqəddəs Nina adlı qız məktəbindən məzun olanların arasında Nalçik şəhərində anadan olan və Balkar türklərindən olan Hənifə xanım Abayevanın da olduğunu öyrənir. Bundan sonra Tiflisə gedən Zərdabi Hənifə xanımı taparaq onunla tanış olur və ona gələcəklə bağlı fikirlərini deyir. Hənifə xanımın da eyni fikirdə olduğunu öyrənən Zərdabi ona evlənmə təklifi edir. Təklifi qəbul edən Hənifə xanım Zərdabi ilə birlikdə yaşamaq üçün Bakı şəhərinə köçür.

Məlumat üçün bildirək ki, XIX əsrin ikinci yarısında dünyanın bir sıra ölkələri üçün dövri mətbuat anlayışı çoxdan mövcud olsa da, Azərbaycanda bu sahədə hələ bir yenilik yox idi. Baş verən dövrün ictimai-siyasi hadisələri milli mətbuatımızın yaranmasını zəruri edirdi. Azərbaycanda milli burjuaziyasının və dövrün görkəmli şəxsiyyətlərinin səyi ilə XIX əsrin ikinci yarısında maarif inkişaf etməyə başladı. O dövrün yazılı mənbələrinə istinadən deyə bilərik ki, təhsil sahəsində bəzi dəyişikliklər həyata keçirildi. Məktəblərdə ana dilinin tədrisinin həyata keçirilməsində M.F.Axundovun, Səid Ünsizadənin, S.Ə.Şirvaninin xidmətləri danılmazdır. S.Ünsizadənin Şamaxıda açdığı məktəbdə şəriətlə yanaşı, fəlsəfə, məntiq, psixologiya, islam dininin tarixi, həmçinin rus və ana dili tədris olunurdu. Maarifçiliyin geniş intişar tapmasında bu şəxsiyyətlərlə yanaşı, görkəmli maarif xadimləri Məhəmməd Tağı Sidqi, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, S.M.Qənizadənin xidmətləri böyükdür. Azərbaycan maarifçilər nəslinin nümayəndələri olan bu şəxsiyyətlər xalqın savadlanması, dövrün mütərəqqi ideyaları ilə tanış olmaları üçün mətbu orqanın imkanlarını yaxşı anlayırdılar. Məhz buna görə də onlar anadilli mətbu orqan yaratmaq üçün fəaliyyətə keçdilər.

Əlbəttə ki, çar Rusiyasında 1865-ci ildə qəbul olunmuş "Senzura haqqında qəti qanun”dan sonra mətbuatda nəşrin qeydə alınması və çapı olduqca çətin iş idi. Həsən bəy Zərdabi qəzet çıxarmaq fikrinə 1868-ci ildə düşmüşdü. Lakin çar idarələrindəki süründürməçilik, hərc-mərclik Zərdabinin qəzet nəşr etmək arzusunu uzun müddət çin olmağa qoymadı. Qəzetin nəşrinə icazə alma 7 il çəkdi. Zərdabinin rəsmi orqanlara ilk müraciəti isə 1873-cü ilin aprel ayında oldu. Qəzetin belə adlandırılması isə çar rejiminin fikrini qəzetin daşıyacağı əsas ideya istiqamətindən yayındırmaq məqsədi güdürdü. Qəzetin nəşrinə 1875-ci ildə icazə verildi və iyul ayının 22-də ”Əkinçi”nin ilk sayı işıq üzü gördü. Bu tarixdən etibarən Azərbaycanda milli dövri mətbuatın əsası qoyuldu. Cəhalətə və mövhumata ağır zərbə vurmaq, xalqa maarifçilik aşılamaq, ana dilində qəzet oxumaq missiyasını üzərinə götürən Zərdabinin məsləkdaşları qarşılarına olduqca məsuliyyətli vəzifə qoydular. ”Əkinçi”nin ilk nömrəsində Zərdabi ”Daxiliyyə”, ”Əkin və ziraət”, ”Elmi xəbərlər”, ”Tazə xəbərlər” bölmələrini olacağının yazırdı. Həsən bəy Zərdabi yazırdı: ”Hər bir vilayətin qəzeti gərək o vilayətin aynası olsun” və ya ”Xalqın hər bir dərdi və xahişi o qəzetdə çap olunsun ki, o qəzetə baxan xalqı aynada görən kimi görsün”.

## MÜTƏRƏQQİ İDEYALARIN CARÇISI VƏ TRİBUNASI

Azərbaycanın ictimai həyatının ən mühüm hadisələrindən biri olan milli mətbuatın təməlinin qoyulması Azərbaycan və eləcə də, bütün Şərq aləmi üçün tamamilə yeni siyasi, mədəni və elmi ünsiyyətin yaranmasına səbəb oldu. 1875-ci il iyulun 22-də milli mətbuatımızın bünövrəsi ”Əkinçi” qəzetinin ilk nömrəsinin nəşri ilə qoyuldu. Bu qəzetin naşiri də, redaktoru da, korrektoru da Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri, təbiətşünas alim Həsən bəy Zərdabi idi. ”Əkinçi” Azərbaycan dilində yayımlanan ilk qəzet olaraq ayda iki dəfə 300-400 tirajla yayımlanmışdır. Ümumilikdə 56 sayı buraxılmışdır. Bu böyük zəhmət hesabına baş gəlmişdir. Dövrünün təqiblərinə baxmayaraq, dözüm gətirdi ”Əkinçi” qəzeti. Dövrünün görkəmli maarifçiləri olan bu şəxsiyyətlər ”Əkinçi” qəzetinin səhifələrində maarifçi və demokratik ideyalarını təbliğ edərək, ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər. Mənbələrə diqqət yetirsək görərik ki, ”Əkinçi”nin 6-cı nömrəsindən sonra qəzetdə məktublar şöbəsi də açıldı. Bu 5 şöbə qəzetin sonuncu nömrəsinə qədər davam etmişdir. ”Əkinçi” Bakıda çap olunsa da, tezliklə ümumrusiya müsəlmanlarının qəzetinə çevrilir. Həsən bəy Zərdabi qəzet oxuyanların sayını artırmaq məqsədi ilə onları pulsuz olaraq yayırdı.

M.F.Axundov geniş oxucu kütləsi üçün buraxılan mətbuat orqanının şriftlərinin gözəl, dilinin, üslubunun, orfoqrafiyasının tam düzgün olmalıdır, deyə Həsən bəyə yazırdı: ”Sizin qəzetinizin əsas məziyyətlərindən biri ifadənin gözəlliyi, ibarələrin zərifliyi və aydınlığı, orfoqrafiyanın düzgünlüyü olmalıdır. Çünki sizin qəzetiniz başqa məsələlərlə yanaşı, Azərbaycan yazısını düzgün olmayan ifadələrdən təmizləməyə çalışmalı, bu dildə yazan bütün adamlar üçün nümunə olmalıdır”.

## ”ƏKİNÇİ” ƏNƏNƏLƏRİ

”Əkinçi” qəzeti Azərbaycan tarixinə yazılan şərəfli səhifələrdən biridir. Bu qəzet cəmi 2 il fəaliyyət göstərsə də, xalqımızın mədəniyyət tarixində böyük ad qoyub. 1877-ci ildə ”Əkinçi” qəzeti bağlandıqdan sonra müxtəlif səylər göstərilməsinə baxmayaraq, ölkəmizdə bir müddət azərbaycanca mətbu orqan çıxmamışdır. Ölkədə cərəyan edən ictimai proseslər və cari məsələlər bir müddət yerli rusdilli mətbuatda öz əksini tapırdı. Bakıda rus dilində çıxan ilk qəzet isə birinci nömrəsi 1871-ci ilin mart ayında işıq üzü görən ”Bakinski listok” olmuşdur. 1876-cı ildə ikinci rusdilli qəzet ”Bakinskiye izvestiya” nəşrə başlamışdır. 1879-cu ildə Hacı Səid Əfəndi Ünsizadə Tiflisdə ”Ziyayi-Qafqaziyyə” qəzetini çıxarmağa nail olmuşdur. Qəzetin cəmi 104 nömrəsi çıxdıqdan sonra 1880-ci ildə o, çapını dayandırmışdır. 1883-1891-ci illərdə Tiflisdə ”Əkinçi” üslubunu davam etdirən ”Kəşkül” qəzeti və jurnalı çıxırdı. XX əsrdə isə Azərbaycan dilində çıxan ilk qəzet Məmmədağa Şaxtaxtinskinin 1903-cü ildə Tiflisdə buraxdığı ictimai-siyasi, iqtisadi, elmi, ədəbi ”Şərqi-rus” qəzeti olmuşdur. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri olmuşdur. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı. Gərgin elmi fəaliyyətlə məşğul olan Həsən bəy Zərdabi həddindən artıq işləyib özünü yorduğu üçün iflic olmuş və 1907-ci il noyabr ayının 28-də vəfat etmişdir. O, 1907-ci ildə köhnə Bibiheybət məscidinin yaxınlığında dəfn olunsa da, 1937-ci ildə həmin ərazi dağıdılmış, mərhumun sümükləri bir neçə il evdə ailəsinin yanında qalmışdır. 1957-ci ildə Həsən Bəy Zərdabinin vəfatının 50 illiyi qeyd olunarkən onun sümükləri Fəxri Xiyabanda dəfn olunmuşdur.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Çin Kommunist Partiyasının nümayəndə heyəti ölkəmizdə səfərdədir

**Yeni Azərbaycan Partiyasının (YAP) dəvəti ilə Çin Kommunist Partiyasının (ÇKP) nümayəndə heyəti ölkəmizə səfər edib.**

Nümayəndə heyəti Fəxri Xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini yad edərək məzarı önünə əklil və gül dəstələri qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər Xiyabanı ziyarət edilib. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Nümayəndə heyəti YAP Yasamal rayon təşkilatında partiyanın Gənclər Birliyinin üzvləri ilə görüş keçirib. Tədbirdə YAP Yasamal































rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Vüqar İskəndərov, partiyanın Gənclər Birliyinin sədri Bəxtiyar İslamov və ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin İnformatika və tədqiqatlar departamenti direktorunun müavini, nümayəndə heyətinin rəhbəri Kanq Şuay çıxış ediblər.

Çıxışlarda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpinin iradəsi sayəsində iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi bildirilib. Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyasının geniş əlaqələrə malik olması xüsusi vurğulanaraq qarşılıqlı səfərlərin və təcrübə mübadiləsinin münasibətlərin gələcək inkişafı baxımından böyük önəm daşıdığı qeyd olunub. 2024-cü ilin noyabr ayında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılığı ilə nümayəndə heyətinin Çinə səfəri zamanı partiyalar arasında imzalanmış Əməkdaşlıq Memorandumunun əhəmiyyəti nəzərə çatdırılıb. Memorandumdan irəli gələrək müxtəlif sahələrdə, o cümlədən gənclər arasında əməkdaşlıq istiqamətində görülən işlərin partiyalar və ölkələr arasında tərəfdaşlığın gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıdığı qeyd olunub. Hər iki partiyanın gənc üzvlərinin gələcək layihə və təşəbbüslərdə fəal iştirak edərək əməkdaşlığın daha da dərinləşdirilməsinə mühüm töhfələr verəcəyinə inam ifadə olunub.

Daha sonra YAP Gənclər Birliyinin sədr müavini Fəsli Nəbiyev və ÇKP Mərkəzi Komitəsinin Mərkəzi və dövlət orqanları ilə iş komitəsinin Siyasi tədqiqatlar departamentinin sektor müdiri Vu Min təqdimatlarla çıxış ediblər.

Çin Kommunist Partiyasının nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında da olub.

Əvvəlcə qonaqlar Akademiyanın nəzdində fəaliyyət göstərən Çin Dili və Mədəniyyəti Mərkəzinin və Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbinin fəaliyyəti ilə tanış olublar.

Sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, YAP Veteranlar Şurasının üzvü, akademik Urxan Ələkbərov "Dayanıqlı inkişaf və ekoloji sivilizasiya naminə innovativ dövlət idarəçiliyi texnologiyaları: Çin Xalq Respublikasının konsepsiyası və Azərbaycan Respublikasının təcrübəsi" mövzusunda təqdimatla çıxış edib.

Tədbirdə, həmçinin ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin İnformatika və tədqiqatlar departamenti direktorunun müavini Kanq Şuay və Milli Məclisin deputatı Aydın Mirzəzadə çıxış ediblər.

Çıxışlarda bildirilib ki, iki ölkə arasında konstruktiv siyasi dialoq şəraitində son zamanlar iqtisadi-ticari, nəqliyyat-logistika, təhsil, turizm, mədəni, humanitar və digər sahələrdə əlaqələr daha da genişlənib. Cari ilin may ayında YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində Dövlət İdarəçilik Akademiyası ilə ÇKP Mərkəzi Komitəsinin Partiya Məktəbi arasında Anlaşma Memorandumunun imzalanmasının dövlət idarəçiliyi və kadr hazırlığı sahəsində təcrübə mübadiləsi baxımından önəmi vurğulanıb.

Nümayəndə heyəti Çinin Qlobal Təşəbbüslərinin, İnkişafının və Mədəniyyətinin Öyrənilməsi Mərkəzinin təşkilatçılığı ilə "Çin Kommunist Partiyasının 105 illik şanlı yolu: gənclərin baxışı ilə ÇKP-ni anlamaq" mövzusunda konfransa da qatılıb.

Qeyd edək ki, nümayəndə heyətinin İçərişəhərə, Dənizkənarı Milli Parkına, "Sea Breeze" istirahət mərkəzinə və Mərkəzi Nəbatət Bağına ziyarəti də təşkil olunub. ÇKP nümayəndələri, həmçinin Azərbaycan Dövlət Akademik Musiqili Teatrının "Operetta incilәri" konsert proqramında iştirak ediblər.

# Məşğulluq Strategiyası nəyi nəzərdə tutur?

***Prezident İlham Əliyev "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirmək, Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək tapşırılıb.***

Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcək.

Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

Qeyd etmək lazımdır ki, bu sərəncam son dərəcə vacib əhəmiyyət daşıyır. Bu məsələ Azərbaycanda məşğulluq siyasəti və əhalinin sosial müdafiəsi istiqamətində həyata keçirilən islahatların mühüm elementidir. Qarşıdakı 5 ildə bu istiqamətdə ciddi tədbirlərin həyata keçiriləcəyi gözlənilir. Onlardan biri də, kadrların hazırlanması məsələsidir. Xüsusən də peşə təhsilli kadrlara ehtiyac var. Azərbaycanda regionların iqtisadi inkişaf prioritetlərinə uyğun peşə hazırlığı mərkəzləri şəbəkəsi genişləndiriləcək.



"Tədbirlər Planı"na əsasən, 2026-2030-cu illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yerli icra hakimiyyəti orqanları ilə birgə regionlarda peşə hazırlığı mərkəzlərinin yaradılması istiqamətində tədbirlər həyata keçiriləcək.

İlkin mərhələdə peşə hazırlığı mərkəzlərinin yaradılması üçün regionlar müəyyənləşdiriləcək. Sonrakı mərhələdə isə 6 regional peşə hazırlığı mərkəzi yaradılacaq. Bu mərkəzlər minlərlə təhsilli kadrlar hazırlayacaq və onların işlə təminatına yardım edələcək. Bu gün bir çox sahələrdə savadlı və bacarıqlı kadrlar çatışmır, xüsusən ustalarla bağlı problemlər var. Yeni dövrün reallıqlarına uyğun olaraq savadlı mütəxəssislərin hazırlanması əmək bazarında onlara tələbatı artıracaq.

Ümumiyyətlə, dövlət ölkədə məşğulluq probleminin həlli üçün bir çox istiqamətlərdə tədbirlər həyata keçirir. Hazırda Azərbaycanda rəsmi işsizlik səviyyəsi 5 faiz civarındadır və bu, dünyada ən aşağı göstəricilərdəndir. Lakin strategiyaya müvafiq olaraq nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi ilə Azərbaycanda işsizlik məsələsi tamamilə aradan qaldırıla bilər. Belə bir potensial və siyasi iradə də mövcuddur.

Bunun üçün dövlət müxtəlif proqramlar həyata keçirir. Kiçik və orta sahibkarlığın dəstəklənməsi də bura daxildir. Özünüməşğulluq proqramı çərçivəsində on minlərlə vətəndaş özünə fərdi iş qurub və uğur əldə edib. Bəziləri bir neçə işçini də işlə təmin edib. Getdikcə fərdi sahibkarlıqla məşğul olanların sayı artır. Göründüyü kimi, bu, çox vacib bir proqramdır. Bu işin genişləndirilməsi nəzərdə tutulur.

Eyni zamanda dövlətlərarası müqavilələr üzrə ölkədə yaradılan iri zavod və fabriklər, müxtəlif müəssisələr də əmək bazarında çox sayda işçini cəlb edir. Aqrar sektorda həyata keçirilən ishalatlar, fermerlərə verilən subsidiyalar və digər güzəştlər kənd rayonlarında məşğulluğu artırır.

Ölkədə (xüsusən də Qarabağ bölgəsində) aparılan böyük tikinti quruculuq işləri də on minlərlə işçi qüvvəsinin işlə təminatını təşkil edib. Digər iri layihələr də çox sayda işçi tələbi ilə əmək bazarına çıxır.

"Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nda nəzərdə tutulan tədbirlər prosesin ciddi nəticələr verəcəyinə şübhə yoxdur.

Planda nəzərdə tutulan "Regionlarda investisiya fəallığının stimullaşdırılması, istehsal olunan malların və xidmətlərin daxili və xarici bazarlara çıxışının dəstəklənməsi üçün tədbirlər görülməsi",

"Regionlarda gənclərin startap layihələrinin dəstəklənməsi, o cümlədən xarici investisiyaların cəlb olunması istiqamətində tədbirlərin genişləndirilməsi",

"Özünüməşğulluq proqramına cəlb olunan şəxslərin biznes subyektləri kimi formalaşdırılmasını təşviq edən yeni mexanizmlərin yaradılması"

"Kənd yerlərində turizm infrastrukturunun inkişafı sahəsində tədbirlərin həyata keçirilməsi", "Regionların iqtisadi inkişaf prioritetlərinə uyğun peşə hazırlığı mərkəzləri şəbəkəsinin genişləndirilməsi" kimi tədbirlər bunu deməyə əsas verir.

***Elçin Bayramlı***

# Mobil operatorların istifadə olunmayan nömrələri nə vaxt və necə yenidən satışa çıxarılır?

***Mobil telefon nömrəsi artıq sadəcə zəng etmək vasitəsi deyil. Bank hesabları, sosial şəbəkələr, dövlət xidmətləri, elektron poçtlar və müxtəlif onlayn platformalar məhz telefon nömrəsi üzərindən təsdiqlənir. Buna görə də uzun müddət istifadə edilməyən nömrələrin taleyi həm istifadəçilər, həm də mobil operatorlar üçün mühüm məsələ hesab olunur.***

Bir çox insan nömrəsini aylarla istifadə etmədikdən sonra yenidən aktivləşdirə biləcəyini düşünsə də, əksər mobil operatorlarda müəyyən müddət ərzində istifadə olunmayan nömrələr dövriyyədən çıxarılır və müəyyən prosedurlardan sonra yeni abonentlərə təqdim edilir. Bu proses isə həm texniki, həm hüquqi, həm də təhlükəsizlik baxımından ciddi qaydalar əsasında həyata keçirilir. SİA mövzu ilə bağlı araşdırma edib.



## Nömrə hansı hallarda deaktiv edilir?

Ən geniş yayılmış səbəb uzun müddət nömrədən istifadə edilməməsidir.

Əgər abonent:

zəng etmir;

SMS göndərmir;

balansını artırmır;

mobil internetdən istifadə etmir;

operator həmin nömrəni qeyri-aktiv hesab edə bilər.

Bundan əlavə, müqavilə şərtlərinin pozulması və ya abonentin öz müraciəti əsasında da nömrə bağlana bilər.

## Nömrə dərhal başqa şəxsə satılırmı?

Mobil operatorlar adətən nömrəni dərhal satışa çıxarmırlar. Əvvəlcə müəyyən "gözləmə müddəti" tətbiq olunur.

Bu müddətdə:

nömrə şəbəkədən çıxarılır;

əvvəlki istifadəçinin xidmətləri deaktiv edilir;

sistemdə texniki yoxlamalar aparılır.

Məqsəd əvvəlki abonentin məlumatlarının yeni istifadəçiyə keçməsinin qarşısını almaqdır.

## Yenidən satış zamanı hansı risklər yaranır?

Bank hesabları və sosial şəbəkələr

Ən böyük risk ondan ibarətdir ki, əvvəlki istifadəçi bəzi hesablarını həmin nömrədən ayırmaya bilər.

Məsələn:

internet bankçılığı;

elektron poçt;

sosial media;

çatdırılma xidmətləri; hələ də köhnə nömrəyə bağlı qala bilər.

Yeni istifadəçi həmin nömrəni əldə etdikdə müxtəlif təsdiq mesajları ala bilər.

Məxfilik problemləri

Bəzən yeni abonentə:

əvvəlki sahibin reklam mesajları;

müxtəlif şirkətlərdən bildirişlər; hətta şəxsi zənglər gəlməyə davam edir.

Bu isə şəxsi məlumatların qorunması baxımından müəyyən risklər yaradır.

## Nömrə dəyişdikdə bu addımlar atılmalıdır...

Yeni nömrəyə keçən istifadəçi:

bank hesablarını;

elektron poçt ünvanlarını;

dövlət xidmətlərini;

sosial media hesablarını; messencer tətbiqlərini yeniləməlidir.

Əks halda köhnə nömrənin başqa şəxsə verilməsi təhlükəsizlik problemləri yarada bilər.

## Nömrənin yenidən satışa çıxarılması kibertəhlükəsizlik baxımından hansı riskləri yaradır?

Rəqəmsal texnologiyaların inkişafı ilə telefon nömrəsi adi rabitə vasitəsindən çıxaraq şəxsiyyətin təsdiqlənməsi üçün əsas elementlərdən birinə çevrilib. Bu səbəbdən istifadə olunmayan nömrələrin yenidən dövriyyəyə buraxılması bəzi kibertəhlükəsizlik riskləri yarada bilər.

Beynəlxalq informasiya təhlükəsizliyi mütəxəssisləri bildirirlər ki, yeni istifadəçi həmin nömrə ilə əvvəlki sahibin bəzi onlayn hesablarına aid SMS bildirişləri ala bilər. Əgər köhnə istifadəçi bank, sosial şəbəkə və ya elektron poçt hesabında telefon nömrəsini dəyişməyibsə, parolun bərpası zamanı müxtəlif təsdiq kodlarının yeni abonentə göndərilməsi mümkündür.

Bu səbəbdən ekspertlər telefon nömrəsini dəyişən şəxslərə bütün rəqəmsal platformalarda məlumatlarını dərhal yeniləməyi tövsiyə edirlər.

## Mobil operatorlar nömrələri necə idarə edir?

Operatorların istifadə olunmayan nömrələrlə bağlı əsas məqsədi məhdud nömrə resurslarından səmərəli istifadə etməkdir. Bunun üçün xüsusi idarəetmə sistemi tətbiq olunur. İlk mərhələdə aktivliyi dayanan nömrə şəbəkədən çıxarılır və müəyyən müddət ərzində ehtiyat bazasında saxlanılır. Bu müddətdə əvvəlki abonentin xidmətləri tamamilə deaktiv edilir, texniki məlumatlar sistemdən silinir və nömrənin yenidən istifadəyə yararlı olub-olmaması yoxlanılır.

Yalnız bütün prosedurlar başa çatdıqdan sonra nömrə yeni istifadəçi üçün satış siyahısına daxil edilir.

Rəqəmsal təhlükəsizlik üzrə mütəxəssislər bir neçə sadə qaydanın vacibliyini vurğulayırlar:

Telefon nömrəsi dəyişdirildikdə ilk növbədə bank hesabları, elektron poçt ünvanları, dövlət xidmətləri və sosial şəbəkələrdəki əlaqə məlumatları yenilənməlidir. İki mərhələli autentifikasiya üçün mümkün olduqda əlavə təhlükəsizlik üsullarından istifadə edilməli, uzun müddət istifadə olunmayacaq nömrələr isə operatorun şərtlərinə uyğun olaraq aktiv saxlanılmalıdır.

***Günel Fərzəliyeva***

# “Putin qapıdadır” - Avropa üçün MÜHARİBƏ SİQNALI...



Dünyanın müxtəlif bölgələrində baş verən müharibələr, münaqişələr fonunda ən amansızı Rusiya-Ukrayna müharibəsi hesab olunur. Çünki bu müharibə zonasında az qala 20 milyona yaxın dinc sakin ev-eşiyini tərk edib. Ümumilikdə Ukrayan tərəfi yüz minə yaxın dövlət və qeyri-dövlət binalarından, yaşayış yerlərindən məhrum olunub. Hesablamaya görə, 18 milyona yaxın ukraynalı ölkəni tərk edib. Rusiya tərəfi isə 1, 5 milyon əsgər və zabit, eyni zamanda iqtisadiyyatının az qala yetmiş faizini itirib. Tərəflərin bir-birinə güzəştə getmək istəməməsi qanlı müharibənin hələ uzun illər dayandırmasının mümkün olmayacağından xəbər verir. Bu isə minlərlə insanın ölümü, yüzlərlə şəhər və kəndlərin dağıdılması, tarixi, memarlıq nümunələrinin yer üzündən silinməsi, milyonlarla insanın ev-eşiyindən didərgin düşməsi deməkdir.

Avropa ölkələri və ABŞ Ukraynaya maliyyə və hərbi yardımlarını artırmağı düşünür. Çünki Rusiyanın Ukrayna üzərində qələbəsi Avropanın çökməsini sürətləndirə bilər. Bu səbəbdən də Qərb ölkələri Ukraynanın uzun müddətli müharibə aparmasına hər cür dəstək göstərirlər. Bununla belə indiyədək Ukraynaya edilən bütün yardımların təxminən yarısını ABŞ təkbaşına maliyyələşdirib. ABŞ prezidenti D.Tramp ayrılan yardımların məbləğini azaltmaq haqqında düşündüyünü bildirsə də, NATO-nun Ankara sammitində siyasətini dəyişdiyini bəyan edib. D. Tramp Ankarada keçirilən NATO-nun sammitində açıq şəkildə bildirdi ki, ölkəsi NATO bayrağı altında Ukraynaya maliyyə və hərbi yardımlarını davam etdirəcək. Bununla yanaşı, Almaniya və Fransa Rusiyanın cəzalandırılması üçün Ukraynaya maliyyə vəsaitlərini və hərbi silah-sursatın həcmini artırmağı təklif edirlər. Eyni zamanda Almaniya və Fransa Ukraynaya ordu göndərməyi düşünürlər. Hələlik isə Almaniya beş minlik ordu ilə Pribaltikada gözləmə mövqeyindədir. İstənilən vaxt Almaniya sayı artırmaqla Pribaltikadakı ordusunu Kiyevə göndərə bilər. Rusiya hakimiyyəti ultimativ şəkildə bəyan edib ki, Ukraynaya ordu göndərilsə və həmin ordu birləşmələri Rusiyaya qarşı döyüşlərdə iştirak etsə, o zaman Avropa şəhərləri legitim hədəfləri olacaq. Hətta Putin və Medvedev nüvə silahından istifadə etməklə dünyanı təhlükə ilə üz-üzə qoyacaqlarını bəyan ediblər. V.Putin açıq şəkildə bildirib: ”Rusiyasız dünya bizim nəyimizə lazımdır”. Bu baxımdan heç bir Avropa ölkəsi əlində hər cür müasir silahı olan Rusiyanın qəzəbinə tuş gəlmək istəmir. Müxtəlif diplomatik yollarla Ukraynaya ordu göndərmək təkliflərindən yayınırlar. Lakin dünyada sülhə və təhlükəsizliyə ən böyük təhdid mərkəzlərindən olan Fransa hakimiyyəti fərqli düşünür. Fransa prezidenti Emmanuel Makron Zelenskini və ordusunu ruhlandırmaq üçün Ukraynaya orta və uzunmənzilli raketlər və bombalarla yanaşı, Qərb qoşunlarının da Rusiya ilə müharibəyə göndəriləcəyini bəyan edib: ”Biz Rusiyanın bu müharibədə qalib gələ bilməməsi üçün lazım olan hər şeyi edəcəyik”.

Bu arada diqqətçəkən məqam ondan ibarətdir ki, Ukrayana nisbətən də olsa hərbi uğurlar əldə etməkdədir. Hərbi rəhbərliyin iddiasına görə, bir sıra ərazilər Rusiya ordusundan təmizlənib. Ukrayna Silahlı Qüvvələrinin baş komandanı Aleksandr Sırski bildirib ki, 2026-cı ilin əvvəlindən etibarən Ukraynanın Müdafiə Qüvvələri Rusiya silahlı qüvvələrindən 670 kvadrat kilometrdən çox ərazisini təmizləməyə nail olub.

Onun sözlərinə görə, xüsusilə Krımda rusları zəiflətmək, onun logistikasını iflic etmək, cəbhəyə qoşunların və sursatın daşınmasının qarşısını almaq üçün genişmiqyaslı tədbirlər həyata keçirilir: ”Bütün bu addımlar düşmənin arxa cəbhəsini iflic etmək məqsədi daşıyır. Əlbəttə ki, məqsəd həm də onların bütün strateji və operativ-strateji daşımalarını pozmaqdır. Ukrayna bu mürəkkəb planın uğurla həyata keçirilməsi imkanına malikdir”.

Görünən ondan ibarətdir ki, uğurlarını davamlı etmək üçün Ukrayna Qərb ölkələri ilə daha geniş əlaqələr qurmaqdadır. Bunun nəticəsidir ki, Almaniya kansleri F.Mertz MIM-104 Patriot hava hücumundan müdafiə sistemlərini Ukraynaya göndərəcəklərini bəyan edib. Qeyd edib ki, silahın tədarükü ən qısa müddətdə reallaşacaq. Almaniyanın müdafiə naziri Boris Pistorius Berlinin əlavə beş Patriot sistemini Ukraynaya təhvil verəcəklərini açıqlayıb. Nazir həmçinin qeyd edib ki, Almaniya Ukraynanı zenit raketləri ilə təmin edəcək və Ukraynada uzaqmənzilli pilotsuz təyyarələrin istehsalını maliyyələşdirəcək.

Almaniyanın müdafiə naziri Boris Pistorius həmçinin İsveçrəyə Patriot tədarükünün gecikdirilməsi və əvvəllər İsveçrə Hərbi Hava Qüvvələri üçün nəzərdə tutulmuş sistemlərin Ukraynaya köçürülənləri əvəz etmək üçün 2027-28-ci illərdən başlayaraq çatdırılmalarla Almaniya Silahlı Qüvvələrinə yönləndiriləcəyi ilə bağlı uzun müddətdir mövcud olan fərziyyələri təsdiqləyib. İsveçrə hökumətinin artıq bununla razılaşdığı bildirilir. Bu arada Ukraynanın Donbas və Luqanski istiqamətində geniş əraziləri işğaldan azad etdiyi bildirilir. Bu isə orduda əhval-ruhiyyənin artmasına, daha əzmlə döyüşməyə həvəsləndirir. Krımdan əhalinin canlarını götürüb, qaçmağa çalışması və bu səbəbdəndə Krım körpüsündə uzun növbələrin yaranması Ukraynalılar arasında əhəmiyyətli sevinc hissi yaradır. Vəziyyəti öz xeyrinə dəyişmək,və yarmada da enerji böhranını dərinləşdirmək üçün Ukrayna ordusu Krımın neft anbarlarını, elektrik enerjisi şəbəkələrini dron və raketlə dağıdır. Məlumatlara görə, Krımın daxilində Rusiya hərbi bazalarını yerlə -yeksan etmək üçün Ukrayna tərəfi ərazilərə cəza dəstələri göndərib. Bu səbəbdən də hazırda Krımda əhali və hərbçilər qorxu və vahimə içindədir. Ehtimal ki, yaxın vaxtlarda Rusiya ordu birləşmələrini Krımdan tam şəkildə çıxaracaq. Təəssüf ki, bu hal belə müharibənin dayanacağını deməyə əsas vermir. Çünki Putin müharibəni davam etdirməkdə maraqlıdır. Rusiya-Ukrayna müharibəsi bir dövlətin çökməsi, digər ölkənin qalib gəlməsi qarşılığında başa çata bilər. Hansı dövlətin qalib, hansı dövləti isə məğlub olacağını isə zaman göstərəcək.

**İ. ƏLİYEV**



MƏTANƏT

# Utanmaq: dünyanın ən gözəl hissi

***Utanmaq sözünü ismin altı halında çox-çox istifadə etmişik. Utanmaq lazım deyil, utanma, gəl, utanmağı qoy kənara, niyə utanırsan kimi. Qonşu oğlu həyətə anası tərəfdən bir diləyə gələndə utanıb, üzü qızarıb, utanma, ay bala,- demişik. Sinif yoldaşımız bizə gələndə, qarşısına yemək qoyanda, o, çəkinəndə, anamız, ay bala, utanmaq nəyə lazım,- deyib. Bir yerə qonaq gedəndə qırışığımız açılmayıb, utanmışıq, utanma, öz evindir,- deyiblər. Bir səhvimiz olanda, müəllim bütün uşaqların içərisində üzümüzə vuranda, utanmışıq, qıpqırmızı olmuşuq. Atamız evə yorğun gəlib dərsimizi soruşanda, bizsə yaxşı oxumadığımızdan kəkələyəndə də xeyli utanmışıq.***

Belə utanmalar dəfələrlə və yüzlərlə olub. Utanmışıq, sıxılmışıq, üzümüz qızarıb, ürəyimiz köksümüzdən az qalıb bayıra çıxsın, utanma deyiblər, bir qədər sonra yavaş-yavaş özümüzə gəlmişik.

Bəli, utanma deyiblər bizə. Lakin utanmağımıza bu gündən baxanda onda nə gözəl məqamlar gizləndiyi və yaxud bəlkə də dünyada utanmaqdan gözəl hiss olmadığı qənaətinə gəlir insan. Bəlkə də ilahi qüvvə bizə utanmaqdan dəyərli hiss nəsib etməyib... Bunu indi, bu günümüzdə dərk etməyimiz də səbəbsiz deyil.

Utanmaq çox gözəl, eyni zamanda çətin hissdir. O qədər çətin ki, insan özünü bu çətinliklərdən keçirib utanmamağa hazırlamalıdır. Bu zaman oynamağa nə var ki... Utanmasan, soyunmağa nə var ki... Utanmasan, ağzına gələni hər kəsin içərisində danışmağa nə var ki... Utanmasan, bədənində hər cür estetik əməliyyat aparıb əzalarını dar paltarlarla ictimaiyyətə təqdim etməyə nə var ki... Utanmasan, yaşlı çağında sosial şəbəkələrdə “canlılarda” gülünc vəziyyətə düşməyə nə var ki... Utanmasan, nənə-baba olduğun halda, sosial şəbəkələrdə heç özün də bilmədiyin nəyi isə danışıb “like” axtarışında olmağa nə var ki...

Utanmasan, aparıcısı olduğun verilişdə əvvəlcədən ssenari hazırlayıb, canlı yayında təsadüfən olubmuş kimi camaata sırımağa nə var ki? Utanmasan, sinəni, ayaqlarını məhrəm yerə qədər açıb səhnədə, sosial şəbəkələrdə ortaya qoymağa nə var ki? Utanmasan, kişi olduğun halda qadın geyimində, makyajında, saç düzümündə küçələrdə gəzməyə nə var ki? Və yaxud utanmasan, qadın adını daşıdığın halda qadına və qadınlığa, hətta analığa yaraşmayan bayağı hərəkətlərlə dolu videolar çəkib paylaşmağa nə var ki?..

Və özümə və ağzıma layiq bilmədiyim məqamlar var ki, bəli, bunların hamısını yalnız utanmadan, utanmaq hissindən məhrum olmaqla edə bilər insan. Bunu onları görüb utandığından susanlar və başını aşağı endirib, özünü görməzliyə vuranların hər biri yaxşı bilir.

Əsas məsələ isə odur ki, sadaladıqlarımın kökündə yalnız utanmaq hissi dayanır. Elə bu an belə qənaətə gəlmək olur ki, həqiqətən də utanmaq nə qədər dəyərli bir hiss imiş. Və belə bir sual da meydana çıxır ki, görəsən bu hissi insan özündən necə kənar edə bilər? Axı bu hisdən məhrum olanları indi bütün yaşlarda görmək mümkündür. Utanmaq hissindən məhrum olmaq üçün illərin lazım olduğunu düşünəndə bunu indi həm yaşlılarda, həm gənclərdə görməyin özü maraq doğurur. Görəsən onlar bir-birilərinə öyrədir bu hisdən məhrumolmanı, yoxsa, utanmaq hissi cavanlaşıb və yaşlaşıb?

Maraqlıdır, hansı səbəbdən olursa-olsun, doğrudan da maraqlıdır ona görə ki, görəsən utanmaq adlı libası əyindən necə belə asanlıqla çıxarıb atmaq olar? Bəlkə səbəbini axtaraq? Sizcə bu hər hansı bir qidadanmı olar, ekoloji çirklənmədənmi, yoxsa ailədaxili münasibətlərdən?.. Hansı ola bilər ki, utanmaq hissinin yaranmasını bu qədər gəncləşdirə və ya yaşlaşdıra bilər?

Lakin çoxsaylı insanlar mənim fikrimdədir ki, utanmaq dünyanın ən gözəl hissidir. Gəlin bir-birimizə xeyir-dua verəndə, alqış edəndə, onu da deyək ki, səni görüm utanasan. Xahiş edirəm, məni düzgün anlayın, vallah, başqa çarə yoxdur. Bəlkə bu zaman bu sözün leksik mənasını unutmuş olmarıq. Onun nə qədər gözəl duyğu, hiss olduğunun hər zaman fərqində olarıq.

# Şəkər və diabet dünya əhalisini öldürür - BÖYÜK TƏHLÜKƏ!



Ötən ilin sonu Berlində keçirilən Dünya Səhiyyə Sammitində təqdim olunmuş son Qlobal Xəstəlik Yükü tədqiqatına görə, qlobal ölüm nisbətləri azalır, lakin yeniyetmə və gənclər arasında azalmır. Bundan əlavə, qeyri-infeksion xəstəliklər hazırda dünyada ümumi ölüm və xəstələnmənin təxminən üçdə ikisini təşkil edir, işemik ürək xəstəliyi, insult və diabet isə dünyada liderlik edir. Tədqiqatçılar həmçinin hesablayırlar ki, bütün ölüm və əlillik hallarının təxminən yarısının qarşısını qan şəkərinin yüksək səviyyəsini və yüksək bədən kütlə indeksini azaltmaqla almaq olar.

"Dünyada qocalma sürətlənir, eyni zamanda əhalinin sürətli artımı və inkişaf edən risk faktorları qlobal səhiyyə problemlərinin yeni bir dövrünün əsasını qoyub. Qlobal Xəstəlik Yükü tədqiqatında təqdim olunan dəlillər hökumət və səhiyyə rəhbərlərini ictimai səhiyyə ehtiyaclarını yenidən formalaşdırmağa çağıran bir həyəcan siqnalıdır.", - deyə Vaşinqton Universitetindən olan Kristofer Murrey bildirib.

Doktor Murreyin komandası və onun 16.500 alim və tədqiqatçıdan ibarət GBD Əməkdaşlıq Şəbəkəsi, 1990-cı ildən 2023-cü ilə qədər 204 ölkə və ərazidə qlobal, regional və milli səviyyədə 375 xəstəlik, xəsarət və 88 risk faktoru üzrə məlumatlar toplayıb təhlil edib və qiymətləndirmələr aparıblar. Ən son iterasiya üçün ümumilikdə 310.000-dən çox məlumat mənbəyindən istifadə edilib ki, bunların 30%-i bu ilki tədqiqat üçün yenidir.

Əhalinin artımına və yaşlanmasına baxmayaraq, 2023-cü ildə qlobal yaş standartlarına uyğun ölüm nisbəti 1950-ci ildən bəri 67% azalıb. Bütün ölkələr və ərazilərdə azalma müşahidə olunub. Qlobal ömür uzunluğu pandemiyadan əvvəlki səviyyələrə - qadınlar üçün 76,3 yaşa, kişilər üçün isə 71,5 yaşa qayıdıb ki, bu da 1950-ci illə müqayisədə 20 ildən çox yüksəkdir. Bu irəliləyişlərə baxmayaraq, ciddi coğrafi fərqlər qalmaqdadır, ömür uzunluğu yüksək gəlirli bölgələrdə 83 il, Afrikada 62 il olaraq qeydə alınır.

Yeniyetmələr və gənclər arasında ölüm hallarında ən böyük artım 2011-ci ildən 2023-cü ilə qədər yüksək gəlirli Şimali Amerikada 20-39 yaş arası insanlar arasında qeydə alınıb ki, bu da əsasən intihar, narkotik maddələrin həddindən artıq dozası və yüksək miqdarda spirtli içki qəbulu ilə bağlıdır. Eyni dövrdə 5-19 yaş qrupunda ölüm halları Şərqi Avropada, yüksək gəlirli Şimali Amerikada və Karib dənizində artıb.

Bütün tədqiqat dövründə körpə ölümlərinin sayı digər yaş qruplarına nisbətən daha çox azalıb. 2011-ci ildən 2023-cü ilə qədər Şərqi Asiyada daha yaxşı qidalanma, peyvəndlər və daha güclü səhiyyə sistemləri sayəsində 5 yaşdan kiçik uşaqlar arasında ölüm nisbətində ən böyük azalma 68% olub.

Sözügedən tədqiqatın modelləşdirilməsindəki irəliləyişlər göstərdi ki, 1950-ci ildən 2021-ci ilə qədər Saharaaltı Afrikada 5-14 yaşlı uşaqlar arasında ölüm nisbəti əvvəllər hesablanandan daha yüksək olub və bu artım tənəffüs yolu xəstəliklərininin, vərəmin, digər yoluxucu xəstəliklərin və təsadüfi xəsarətlərin yüksək nisbətləri ilə əlaqədardır. Yeni hesablamalar həmçinin Saharaaltı Afrikada 15-29 yaşlı qadınlarda ölüm nisbətinin əvvəllər hesablanandan 61% yüksək olduğunu və bunun əsasən ana ölümü, yol xəsarətləri və meningit səbəbindən baş verdiyini göstərdi. Ölüm səbəbləri yoluxucu xəstəliklərdən çox qeyri-yoluxucu xəstəliklərdən olur və bu da, xüsusən də aşağı gəlirli ölkələr üçün yeni qlobal səhiyyə problemləri yaradır. 2021-ci ildə ölümün əsas səbəbi olan COVID-19, 2023-cü ildə 20-ci pilləyə düşdü və işemik ürək xəstəliyi və insult yenidən birinci yerə, ardınca xroniki obstruktiv ağciyər xəstəliyi, aşağı tənəffüs yollarının infeksiyaları və neonatal xəstəliklər gəlir. 1990-cı ildən bəri dünyada işemik ürək xəstəliyi və insultdan ölüm nisbəti azalıb, ishal xəstəlikləri, vərəm, mədə xərçəngi və qızılca da nisbətən azalıb. Əksinə, eyni dövrdə diabet, xroniki böyrək xəstəliyi, Alzheimer xəstəliyi və HİV/AİDS-dən ölüm nisbəti artıb.

Qlobal ölümün orta yaşı 1990-cı ildəki 46,4-dən 2023-cü ildə 62,9-a yüksəlsə də, coğrafi bərabərsizliklər bu məsələdə əhəmiyyətlidir. Ən yüksək orta ölüm yaşı yüksək gəlirli superregionda qeydə alınıb, qadınlar 80,5 yaşa, kişilər isə 74,4 yaşa çatıb. Ən aşağı orta ölüm yaşı Saharadan cənubda yerləşən Afrikada qeydə alınıb, qadınlarda 37,1, kişilərdə isə 34,8 yaş olub.

70 yaşından əvvəl ölümün ümumi səbəb ehtimalı 2000-ci ildən 2023-cü ilə qədər hər bir superregion və bölgə üzrə azalıb, lakin narkotik istifadəsi əsas ölüm səbəblərindən biri olub. Afrikada bir çox qeyri-infeksion xəstəliklər üçün ehtimal artıb və qeyri-infeksion xəstəliklərdən ölümün orta yaşı gözləniləndən aşağı olub. Yüksək gəlirli superregionda narkotik istifadəsi artıb və ölümün orta yaşı gözləniləndən aşağı olub.

2023-cü ildə qlobal ölüm və xəstələnmə hallarının təxminən yarısı 88 dəyişdirilə bilən risk faktoru ilə əlaqəli idi. Sağlamlıq itkisinin ən yüksək nisbətinə malik 10 risk faktoru yüksək qan təzyiqi, qanın çirklənməsi, siqaret çəkmə, yüksək qlükoza, aşağı doğum çəkisi və yarımçıq hamiləlik, yüksək xolesterol, böyrək disfunksiyası, çirkli havaya məruz qalmaq idi.

10-cu aparıcı risk olan qurğuşuna məruz qalmaq ürək-damar xəstəlikləri ilə birbaşa əlaqəni sübut etdi. Gündəlik həyatın hər addımında olan qurğuşun yanacaq, boya, çirklənmiş torpaq və su, bir çox mətbəx qablarının tərkibində ola bilir və ciddi ətraf mühit çirkləndiricisidir. Hava çirkliliyi və istilik kimi qlobal problemlər sağlamlığa təsir göstərməyə davam edir. Yüksək temperaturlar həmçinin quraqlıq, qida çatışmazlığı və köçkünlük hallarını daha da artıraraq təhlükəyə səbəb olur.

Psixi sağlamlıq pozğunluqları kəskin şəkildə artıb - 63%. Depressiv pozuqluqlar isə 26% artıb. Bundan əlavə, cinsi istismar və zorakılıq da depressiya, narahatlıq və digər sağlamlıq problemlərinə səbəb olan amillər kimi müəyyən edilib.

5 yaşdan kiçik uşaqlar arasında 2023-cü ildə aparıcı risk faktorları uşaq və ananın qidalanmaması, çirkli su, yetərsiz sanitariya və gigiyena idi. 5-14 yaşlı uşaqlar və yeniyetmələr üçün dəmir çatışmazlığı aparıcı risk idi, 15-49 yaş qrupu üçün ən yüksək iki risk təhlükəli cinsi əlaqə və peşə xəsarətləri idi, ardınca qan təzyiqi və siqaret çəkmə alışqanlığı gəlir. 50-69 yaş arası insanlar üçün yüksək qan təzyiqi ölüm üçün əsas risk faktoru olub.

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*

# "Milli mətbuatın 150 illik inkişaf yolu: "Əkinçi"dən rəqəmsal media dövrünə qədər"

"22 iyul Azərbaycan tarixində təkcə peşə bayramı deyil, həm də milli düşüncənin, maarifçiliyin və azad sözün təntənəsi kimi qeyd olunur. Məhz 1875-ci il iyulun 22-də Həsən bəy Zərdabinin təsis etdiyi "Əkinçi" qəzeti ilə Azərbaycan milli mətbuatının əsası qoyuldu". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Ülviyyə Həmzəyeva bildirib.




Onun sözlərinə görə, cəmi iki il fəaliyyət göstərməsinə baxmayaraq, "Əkinçi" xalqın maariflənməsinə, milli özünüdərkin formalaşmasına və ictimai fikrin inkişafına misilsiz töhfə verdi.

Sonrakı illərdə "Ziya", "Kəşkül", "Şərqi-Rus", "Həyat", "Füyuzat", "Molla Nəsrəddin", "Açıq söz" kimi qəzet və jurnallar milli mətbuat ənənələrini daha da zənginləşdirdi. Azərbaycan dili, milli kimlik və azadlıq ideyaları məhz bu nəşrlərin səhifələrində geniş şəkildə təbliğ olundu.

Müstəqillik illərində isə Azərbaycan mediası yeni inkişaf mərhələsinə qədəm qoydu. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə senzuranın ləğvi, söz və məlumat azadlığının təmin olunması, medianın hüquqi bazasının formalaşdırılması ölkədə azad mətbuatın inkişafına geniş imkanlar yaratdı. Prezident İlham Əliyevin rəhbərliyi dövründə media islahatları davam etdirildi, Medianın İnkişafı Agentliyi yaradıldı, "Media haqqında" Qanun qəbul edildi, media subyektlərinə vergi güzəştləri tətbiq olundu və jurnalistlərin sosial müdafiəsi istiqamətində mühüm addımlar atıldı.

Bu il Azərbaycan milli mətbuatı 150 illiyini qeyd edir. Prezident İlham Əliyevin sərəncamı ilə yubiley dövlət səviyyəsində qeyd olunur, həmçinin "Azərbaycan milli mətbuatının 150 illiyi" yubiley medalı təsis edilib. Bu, dövlətin milli mətbuata verdiyi yüksək dəyərin növbəti ifadəsidir.

Müasir dövrdə Azərbaycan mediası artıq qlobal informasiya məkanının ayrılmaz hissəsinə çevrilib. İnternet jurnalistikası, rəqəmsal platformalar, süni intellekt texnologiyalarının tətbiqi və beynəlxalq media əməkdaşlığı yeni inkişaf mərhələsini formalaşdırır. Bununla yanaşı, peşəkar jurnalistika, obyektivlik, operativlik və milli maraqların qorunması Azərbaycan mediasının əsas prinsipləri olaraq qalır.

Milli Mətbuat Günü münasibətilə bütün jurnalistləri və media nümayəndələrini təbrik edir, onlara ölkəmizin informasiya təhlükəsizliyinin qorunması, həqiqətlərin dünyaya çatdırılması və peşə fəaliyyətlərində yeni uğurlar arzulayıram".

***Günay Hacıyeva***

## Paşinyan Sülh Müqaviləsini niyə "unutdu"?

### Mətləb Salahov: "Ermənistan hakimiyyəti Sülh Müqaviləsindən daha çox öz yerini möhkəmləndirmək üçün çalışır"



"Nikol Paşinyan parlament seçkilərindən sonra var gücü ilə seçkilərdə məğlub olmuş rəqiblərini tamamilə sıradan çıxarmağa və daha çox despot rejimini formalaşdırmağa çalışır. Serj Sarkisyan, Levon Ter-Petrosyan, Robert Koçaryan kimi siyasi düşmənlərini bir kənara atan hazırkı erməni baş nazir, indi də möhkəmlənmiş rejim formalaşdırmaq üçün hərəkətə keçib. Artıq ictimai rəydəki "demokrat Paşinyan" imici despot hakimiyyət başçısı ilə əvəz olunmağa başlanılıb. Onun son addımları N.Paşinyanın Donald Tramp Administrasiyası və Avropa İttifaqındakı müttəfiqlərinə arxalanaraq Ermənistanda uzunmüddətli hakimiyyət yaratmaq üzərində işlədiyini ortaya qoydu". Bu barədə SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, hazırda Ermənistan hakimiyyəti Azərbaycanla Sülh Müqaviləsi barədə real addımlar atmır. "Yeni erməni konstitusiyası barədə müzakirələr gedir. N.Paşinyan yeni erməni konstitusiyasında daha çox öz hakimiyyətinin maraqlarını təcəssüm edən bəndlər üçün baş sındırır. Onun yeni erməni konstitusiyasında Azərbaycanla Sülh Müqaviləsinə mane olan bəndləri aradan qaldırmaq üçün hazırda bir kəlmə də danışmaması dediklərimizi tamamilə sübuta yetirir. N.Paşinyan Sülh Müqaviləsini reallaşdırmaqdan daha çox İrəvanda öz despot rejimini yaratmaq üçün çalışır".

***Afət Tahirqızı***

SON SƏHİFƏ
SƏS
21 iyul
2026-cı il

# Ailə büdcəsini ən çox zəifledən “görünməz xərclər”...



ARAŞDIRMA

**İlk baxışdan böyük məbləğ təşkil etməsə də, gündəlik həyatın ayrılmaz hissəsinə çevrilən kiçik xərclər ayın sonunda ailə büdcəsində ciddi boşluq yarada bilər. Maliyyə mütəxəssisləri bildirirlər ki, insanların əksəriyyəti məhz ”görünməyən xərclər” səbəbindən planlaşdırdığı qədər pul yığa bilmir. SİA mövzu ilə bağlı araşdırma edib.**

## Gündəlik kiçik alış-verişlər

Hər gün alınan qəhvə, qəlyanaltı, su, taksi və ya lazımsız xırda alış-verişlər ayrı-ayrılıqda cüzi görünsə də, aylıq hesablandıqda yüzlərlə manat təşkil edə bilər.

## İstifadə olunmayan abunəliklər

Film platformaları, musiqi tətbiqləri, bulud yaddaşı, mobil proqramlar və idman zalları kimi aylıq ödənişlərdən istifadə edilməsə belə, avtomatik olaraq vəsait çıxılır. Bir çox ailə bu ödənişlərin fərqinə belə varmır.

## Elektrik və su israfı

Lazımsız yanan işıqlar, işlək vəziyyətdə qalan elektrik cihazları, köhnə məişət texnikası və su israfı kommunal xərcləri artıran əsas səbəblərdəndir.

## Endirim adı ilə edilən alış-veriş

”Endirim var”, ”kampaniyadır” düşüncəsi ilə ehtiyac olmayan məhsulların alınması büdcəyə ciddi təsir göstərir. Əsl qənaət yalnız ehtiyac olan məhsulun endirimlə alınmasıdır.

## Çatdırılma xidmətləri

Yemək və məhsul sifarişlərində çatdırılma haqqı, xidmət komissiyası və əlavə ödənişlər ümumi məbləği nəzərəçarpacaq dərəcədə artırır.

## Bank komissiyaları

Kartdan karta köçürmələr, nağdlaşdırma, gecikdirilmiş kredit ödənişləri və müxtəlif xidmət haqları kiçik görünən, lakin mütəmadi təkrarlanan xərclərdir.

## Plansız market alış-verişi

Siyahısız marketə getmək, impulsiv alış-veriş etmək və məhsulları müqayisə etmədən almaq ailə büdcəsinə əlavə yük yaradır.

## Qida tullantıları

Vaxtında istifadə edilməyən ərzaqların xarab olması, normadan artıq alış-veriş və düzgün saxlanmayan məhsullar da görünməyən maliyyə itkilərindəndir.

## Taksidən həddindən artıq istifadə

Qısa məsafələrdə belə şəxsi avtomobil və ya ictimai nəqliyyat əvəzinə taksidən istifadə aylıq nəqliyyat xərclərini əhəmiyyətli dərəcədə artırır.

## Gecikmə cərimələri

Kommunal ödənişlər, kreditlər və digər xidmət haqlarının gecikdirilməsi əlavə faiz və cərimələrə səbəb olur.

## Ekspertlər nə tövsiyə edir?

Maliyyə mütəxəssisləri ailə büdcəsini qorumaq üçün hər ay bütün xərclərin qeyd edilməsini, istifadə olunmayan abunəliklərin ləğvini, alış-verişə siyahı ilə getməyi və aylıq qənaət hədəfi müəyyənləşdirməyi tövsiyə edirlər. Araşdırmalar göstərir ki, insanlar məhz xırda, lakin davamlı xərcləri nəzarətdə saxladıqda, büdcələrində ən böyük fərqi hiss edirlər. Dünyada aparılan araşdırmalar göstərir ki, ailə büdcəsini zəiflədən ”görünməyən xərclər” ölkədən-ölkəyə fərqlənsə də, əsas tendensiyalar oxşardır.

## “Latte effekti” - kiçik gündəlik xərclər

Maliyyə eksperti David Bach tərəfindən populyarlaşdırılan ”Latte Factor” anlayışına görə, hər gün edilən kiçik xərclər (qəhvə, qəlyanaltı, taksi və s.) uzunmüddətli dövrdə minlərlə dollar və ya manat itkisinə səbəb ola bilər.

## “İmpulsiv alış-veriş”

Xüsusilə onlayn mağazalarda ”İndi al”, ”Son 1 məhsul qalıb”, ”50% endirim” kimi marketinq üsulları insanları planlaşdırmadıqları alış-verişə sövq edir.

## Çatdırılma xidmətləri

Yemək sifarişlərində çatdırılma haqqı, xidmət komissiyası və əlavə ödənişlər məhsulun öz qiymətindən belə yüksək ola bilir.

## Enerji xərcləri

Avropa və ABŞ-da aparılan araşdırmalar göstərir ki, köhnə məişət texnikası və enerji səmərəsiz evlər ailələrin kommunal xərclərini əhəmiyyətli dərəcədə artırır.

## Qida tullantıları

BMT-nin məlumatlarına görə, dünyada istehlak üçün nəzərdə tutulan qidanın böyük hissəsi israf olunur. Bu, həm ailə büdcəsinə, həm də qlobal iqtisadiyyata milyardlarla dollar ziyan vurur.

## Bank və maliyyə xidmətləri

Kredit kartı faizləri, gecikmə cərimələri, hesab xidmət haqları və valyuta konvertasiya komissiyaları da inkişaf etmiş ölkələrdə ailələrin ən çox şikayət etdiyi gizli xərclər sırasındadır.

## Yeni tendensiya: ”Mikroxərclər”

Son illərdə maliyyə analitikləri ”mikroxərclər” anlayışına xüsusi diqqət çəkirlər. Buraya mobil oyunlarda tətbiqdaxili alışlar, ödənişli stikerlər, rəqəmsal hədiyyələr, AI platformalarına aylıq abunəliklər və digər kiçik rəqəmsal ödənişlər daxildir. Ayrı-ayrılıqda cüzi görünən bu ödənişlər il ərzində ciddi məbləğə çevrilə bilir.

***Ayşən Vəli***

**“SƏS” qəzetinə abunə kampaniyası davam edir!**



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur
**Tiraj: 2000**